

Vahid MƏHƏRRƏMOV





# Tütəkçalan kişinin nağılı

*hekayə*

Trolleybusa minməkdən yaman xoşum gəlirdi. O həm bir az ucuz, həm də kənd uşağı üçün əsl əyləncə idi. Rayonda avtobusa çox minmişdim. Trolleybusu isə birinci dəfə şəhərə ayaq basanda görmüşdüm. Xarici görünüşü bir az kobud olsa da, həm rahat, həm də səs-küysüz nəqliyyat idi.

Sürətlə getdiyi yerdə hərdən üstündəki "buynuzlar"ı yuxarıdan keçən naqildən çıxırdı. Cərəyandan ayrılan kimi trolleybus asta-asta bir az qabağa gedib dayanırdı. Belə olanda sürücü əsəbi halda sükan arxasından qalxar, çirkli əlcəklərini geyinərək, "buynuzun" ipindən aşağı dartıb, yumruğu ilə qatlanmış dirsəyi vurub yerinə oturdardı. Sonra ustalıqla onun ucundakı dərin olmayan haçanın çalasını yenidən naqilə keçirərdi. Beləcə, asta-asta, arada-bir dayana-dayana, fısıltı salan trolleybus sərnişinləri vaxtında və sağ-salamat mənzil başına çatdırardı.

Son vaxtlar trolleybusa daha çox tütəkçalan kişiyə görə minirdim. Birinci dəfə bu ağsaçlı qocanın salonda tütək çaldığını görəndə çaşıb sına qoyub arxayın-arxayın püləyir. Arıq və uzun olmayan barmaqlarını da tez-tez onun deşikləri üstündə irəli-geri gəzdirib kökləndiyi havanı döndərməyə çalışır. Elə bil ağsaqqal möhtəşəm bir sarayda sola konsert verirdi. Tütəyin həzin səsi trolleybusun pəncərəsindən şəhərin küçələrinə yayılıb asta-asta daşlara, divarlara hopurdu. Qoca tütəkçalan havaların döndərmə və zil yerlərində bəzən ləngiyirdi. Nəfəsi axıra qədər çatmadığından bir az çətinlik çəkirdi. Gəzişmələri düzgün eləmir, xırda səhvlər buraxırdı. Deyəsən, bu kişi tütək çalmağı ahıl yaşında təzə-təzə öyrənirdi. Xırda səhvlərinə baxmayaraq, ifa etdiyi mahnılar ürəyəyatımlı idi.

İlk dəfə görəndə fikirləşdim ki, yəqin bu adam dəlidir, ağlını itirib çöllərə düşüb. Öz-özümə sual verirdim ki, görəsən, nə xəbərdi? Kişi yaşının bu çağında niyə trolleybusda tütək çalır? Məgər başına yer qəhətdir? Nə olub, toy-zaddır bəyəm, bəlkə gəlin gətirirlər? Ağsaqqal isə mənim öz-özümə verdiyim suallardan xəbərsiz gözlərini yumub dodaqları Pulların cingiltisi sanki tütəyin səsinə bir ahəng qatırdı. Sən demə, tütək çalan ağsaqqal dilənçilik edirmiş. Qocanın bu hərəkətinə öz-özlüyümdə möhkəmcə əsəbləşdim. Fikirləşdim ki, dilənirsə qoy dilənsin, tütək çalmağın bu işə nə dəxli var? Bu qədim və gözəl aləti niyə işə qatır, özünün dilənçiliyinə şərik edib gözdən salır? Niyə tütəyi başı qarlı dağlardan, göz işlədikcə uzanıb gedən yovşan qoxulu çöllərdən, geniş ormanlardan ayırıb şəhərə trolleybusların salonlarına gətirir. Onu dilənçiliyə öyrədir.

Sonralar tütəkçalan qocayla trolleybusda görüşlərimiz çox oldu. Ağsaqqal öndəki oturacqda rahatca özünə yer edərək asta-asta tütəyinə dəm verib dilənçilik edirdi. Az vaxtda dizinin üstündəki papağa xeyli qəpik-quruş yığılırdı. Onu trolleybusda görməyəndə, çalğısını eşitməyəndə elə bil nə isə çatışmırdı, vaxt da maraqsız və darıxdırıcı keçirdi. Sanki marşurut da nizamını itirib yollarda ləngiyir, mənzil başına gec çatırdı. Salona minən kimi özümdən asılı olmadan gözlərim



qalmışdım. Şahidi olduğum hadisə mənə yaman qəribə gəlmişdi. Rayon və kənd yerində trolleybus yox idi. Onunla ilk "görüşümüz" indiki kimi yadımdadır. Marşrutun arxa qapısından minib üzü sürtülmüş qəhvəyi rəngli oturacaqda əyləşdim. Trolleybus asta-asta yerindən tərpəndi. Bir az keçmiş tütək səsi eşitdim. Fikirləşdim ki, yəqin radioda kənd həyatı ilə bağlı veriliş gedir. Ona görə də efirə belə həzin tütək səsi verirlər. Sonra gördüm ki, yox e, elə eyni mahnı təkrar-təkrar ifa olunur. Necə deyərlər, "çevir tatı, vur tatı". Bu nə isə radio məsələsi deyil, peşəkar çalğıya oxşamır. Deyəsən, tütək səsi salonun qabaq tərəfindən gəlirdi. Yerimdən qalxıb bir az irəli boylandım. Gördüm ki, lap öndəki oturacaqda rahatca əyləşən yaşlı bir kişi tütəyi dodaqlarının arasına sıxdığı tütəyinə güc vermişdi. Sanki ətrafında kimsə yox idi. Əvvəlcə elə bildim kordur. Sonra gördüm ki, yox, arada-bərədə gözlərini açıb baxır. Bütün fikrimi-zikrimi ona cəmləmişdim. Gözləyirdim ki, görüm bu işin axırı nə ilə qurtaracaq. Bu qoca nədən belə edir, niyə iş-gücünü atıb trolleybusda tütək çalır? Bəlkə sərnişinlərə mədəni xidmət göstərir, mini konsert verir? Sonra baxıb gördüm ki, salonda kimsə onun hansı mahnını ifa etdiyinə əhəmiyyət vermədən bir-birləri ilə şirin-şirin söhbət edirlər. Deyəsən, heç məndən başqa ona maraq göstərib baş qoşan yox idi.

İlk dəfə gördüyümdən qocanın bütün hərəkətləri mənə maraqlı gəlirdi. Sonra sərnişinlərin onun dizlərinin üstünə qoyduğu papağının içinə qəpik-quruş atdığını gördüm. onu axtarırdı. Bəzən də qarşılaşırdım. O ağac kölgəsində oturub tütəyinə güc veriedi. Barmaqlarını xırda deşiklər üstündə kökləndiyi havanın ritminə uyğun olaraq bəzən asta-asta, bəzənsə tez-tez gəzdirirdi. Həzin melodiya dalğa-dalğa ətrafa yayılıb bir anda gur səslərin içində itib-batırdı. Yoldan keçənlər onun ifa etdiyi mahnıları dinlədikcə qarşısındakı papağının içinə beş-on qəpiklik xırda pullar atırdılar. O da əziyyətə qatlaşıb ovurdlarını şişirdib mahnıların arasını kəsmirdi. Bəzən onun çalğısının səsi gündüzlər deyil, axşamlar da trolleybuslardan eşidilirdi. Qoca gecə saat on birə, on ikiyə kimi gözünə yuxu getmədən şəhəri dolaşırdı.

Zaman keçdikcə nədənsə tütəkçalan ağsaqqala marağım yavaş-yavaş azalırdı. Son vaxtlar rastlaşanda mən də başqaları kimi onun nə ifa etdiyi ilə o qədər maraqlanmırdım. O isə heç kəsə məhəl qoymadan öz işini görürdü. Səhərdən axşamadək trolleybusda əyləşib dodaqlarının arasına sıxdığı tütəyinin səsi ilə sərnişinləri əyləndirməyə çalışırdı.

İllər ötüb bir-birini əvəz edirdi. Hərbi xidmətdən qayıtdıqdan sonra tütəkçalan qocanı nə trolleybusda, nə parkda, nə də metro stansiyalarının qarşısında gördüm. O ya rəhmətə getmiş, ya da özünə fərli bir iş tapıb dilənçiliyin daşını atmışdı. Nədənsə özümdən asılı olmadan trolleybusa minəndə gözüm ağsaqqalı axtarırdı. Elə bil qulaqlarım da onun ifa etdiyi mahnılar üçün darıxmışdı. Tütəkçalan qoca isə heç yerdə gözə dəymirdi.

Bir müddətdən sonra şəhərin küçələrindən trolleybuslar da yığışdırıldı. Bəlkə də ağsaqqal əvvəlcədən bunu hiss edib özünə başqa bir iş tapmışdı.

Yavaş-yavaş tütəkçalan ağsaqqal unudulub yaddaşlardan silinirdi. Onu tanıyıb xatırlayan adamların da sayı getdikcə azalırdı. Günlərin birində sanki möcüzə baş verdi. Fəvvarələr bağından keçəndə qulağıma tütək səsi gəldi. Heyrətdən donub yerimdə qaldım. Sanki ayağımdan daş asılmışdı. Səs mənə çox tanış gəlirdi. Bu, illərcə əvvəl yaddaşıma hopub qalmış, xiffətini çəkdiyim musiqi idi. Eşitdiyim çalğı məni qanadlarına alıb bir anın içində ötən illərə apardı. Gör aradan neçə illər keçmişdi. Düşündüm ki, bəlkə tütəkçalan elə həmin qocadır. Yenə də doğma şəhərinin küçələrinə qayıdıb. İş yeri bağlandığından, çörək qazanmaq üçün yenə də köhnəlmiş alətinə sığınıb. Yenidən əvvəlki "peşə"sinə qayıdıb. Ağır-ağır səs gələn tərəfə addımladım. Gördüklərimə inanmadım. Tütək çalan elə həmin ağsaqqal idi. Onu tanıyan kimi sevindim. Hələ lap istədim ki, gedib əl verib onunla görüşəm. Kefini soruşum, bağrıma basıb el havalarını ifa edən əllərindən, barmaqlarından öpəm. Taxta oturacaqda bardaş qurmuş qoca həmişəki kimi tütəyi dodaqlarının arasına sıxıb ovurdlarını şişirdib asta-asta püləyirdi. Köhnə papağını da təzə parkın təzə oturacağının üstünə qoymuşdu. Tütəkdən ətrafa dalğa-dalğa illərcə əvvəl olduğu kimi yenə də həzin və kövrək musiqi sədaları yayılırdı. İşlərim çox olsa da ayaq saxlayıb ona xeyli qulaq asdım. Gözlərim önündə qocanın trolleybusda tütək çaldığı günlər canlandı. Elə bil bir anlıq keçmişə döndüm, ötən illəri təzədən yaşadım. Onda indikindən cavan idim. Deyəsən, ağsaqqal da xeyli yaşlaşmışdı. Hiss etdim ki, hərdən əlləri əsir, barmaqları sözünə baxmır. Qoca tütəyi əlində möhkəm tutmağa çalışır, arıq, nazik barmaqlarını da çaldığı alətin xırda deşikləri üzərində hərdən tez-tez, hərdən də asta-asta gəzdirirdi. Tütəkçalan qocalıb əldən düşsə də, avazı dəyişməmişdi.

Onun ifa etdiyi mahnılara bir az da qulaq asıb yoluma davam elədim. Deyəsən, tütək səsi də arxamca düşüb aram-aram ətrafa yayılırdı. Elə bil şəhərimiz də çoxdan bəri eşitmədiyi bu səs üçün darıxmışdı. Ağacdan-ağaca atılan quşlar da tütəkçalan qocanın çalğısına səs verir, cəh-cəh vurub onun mahnılarını tamamlayırdı. Mənim kimi daşların, divarların da üzü gülürdü. İndi tütəkçalan kişini şəhərdə hamı salamlayırdı. Deməli, hələ bundan sonra bu səsi çox eşidəcəyik.

Xəyalların qanadında ötən illərə qayıdıb sanki yenə də trolleybusda tütəkçalan ağsaqqala qulaq asırdım. Qəlbimdə dolaşıb ürəyimə axan bu səs yəqin ki, heç vaxt kəsilməyəcəkdi. Tütək səsi hələ şəhərimizin küçələrində çox dolaşacaqdı. Nə bilmək olar, bəlkə elə günlərin birində trolleybuslar da tütək səsinə şəhərimizin küçələrinə qayıdacaq. Biz də böyük həvəslə onun salonlarında keçmiş günlərə səyahət edəcəyik...